**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 278/1** **06 sentyabr 2016-cı il**

**"Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin verilməsi" Qaydalarının təsdiq edilməsi barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa və Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.5-ci bəndinə uyğun olaraq Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış Qaydaları müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin verilməsi" Qaydaları təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazə blanklarının xüsusi qoruyucu və fərqləndirici nişanlardan istifadə edilməklə iki həftə ərzində mətbəədə tələb olunan nüsxədə çap olunmasını təmin etsinlər.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın:

- auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin bu Qaydalara uyğun olaraq verilməsini təmin etsin;
- Auditorlar Palatası tərəfindən 2016-cı il 01 iyun tarixindən hal-hazıradək auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş müvəqqəti icazələrin bir ay müddətində bu Qaydalara uyğun olaraq yenidən rəsmiləşdirilməsini təmin etsin.

4. Bu qərarın və "Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin verilməsi" Qaydalarının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**